

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 134 (23.546)

18 avqust 2020-ci il, çərşənbə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 17 avqust tarixli Sərəncamı ilə bir qrup hərbi qulluqçuya ali hərbi rütbələr verilmişdir. Ölkə Prezidentinin həmin Sərəncamına əsasən "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri

**general-mayor Niyaməddin Məhərrəm oğlu Tağıyevə**

"general-leytenant" hərbi rütbəsi verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 17 avqust tarixli Sərəncamı ilə Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi qulluqçuları da vardır.

**Mehdiyev İlkin Hüseyn oğlu – mayor**

"İgidliyə görə" medalı ilə,

**Məlikov Vüqar Səfər oğlu – polkovnik-leytenant**

**Mirzəliyev Rauf Vaqif oğlu – polkovnik-leytenant**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



***2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı 12 avqust 2020-ci il tarixdə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən verilmiş tapşırıqlar və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində əməliyyat müşavirəsi olub. Tədbirdə Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov məruzə ilə çıxış edib.***

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyev yolunu uğurla davam etdirən Ali Məclisin Sədri cənab Vasif Talıbovun həyata keçirdiyi siyasi strategiya nəticəsində muxtar respublikada hərtərəfli inkişafa nail olunub. Məharətlə tətbiq edilən idarəetmə sistemi əsasında sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənib, əhalinin rifah halı yüksələrək ərzaq və enerji təhlükəsizliyi tam təmin edilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında payız-qış mövsümünə hazırlıq Ali Məclisin Sədri tərəfindən diqqət mərkəzində saxlanılaraq hər il müşavirə keçirilir və aid qurumlara müvafiq tapşırıqlar verilir. Muxtar respublikada qabaqlayıcı tədbirlərin ardıcıl həyata keçirilməsi artıq neçə ildir ki, payız-qış mövsümünü problemsiz başa vurmağa, eləcə də əhalinin rahatlığının tam təmin olunmasına şərait yaradıb. Növbəti mövsümü də uğurla başa vurmaq üçün hazırlıq işlərinin görülməsi və zəruri ehtiyatların yaradılması vacib olan mühüm tapşırıq kimi qarşımızda dayanır.

Qeyd olunub ki, 2019-2020-ci illərin payız-qış mövsümündə qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsinin nəticəsidir ki, ötən dövr ərzində daxili işlər orqanları heç bir çətinliklə üzləşməyib, mövsümü müsbət nailiyyətlərlə başa vurub. Belə ki, ötən payız-qış mövsümü ərzində aidiyyəti dövlət orqanları ilə birgə həyata keçirilən tədbirlər nəticəsində elektrik enerjisindən, təbii qazdan və sudan qanunsuz istifadə hallarının qarşısının alınması istiqamətində 31 fakt aşkar edilərək inzibati xəta törətmiş vətəndaşlar barəsində qanunamüvafiq tədbirlər görülüb. Bundan əlavə, qanunsuz ov etdiyinə və ağac kəsdiyinə görə 7 nəfər barəsində inzibati protokol tərtib edilib.

Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan Daxili İşlər Nazirliyi istər maddi-texniki, istər əşya-ərzaq, istərsə də digər təminat növləri üzrə şəxsi heyətin tələbatını tam ödəməklə yanaşı, zəruri ehtiyat tədbirlərinin görülməsini əvvəlcədən planlaşdırıb başa çatdırıb.

Təkcə ötən ay ərzində uzunmüddətli istismar nəticəsində yararsız hala düşmüş, eləcə də texniki vəziyyətinə görə payız-qış mövsümündə istifadəsi çətinlik yaradan 10 ədəd "Şevrolet-Niva" markalı xidməti avtomobil nazirliyin balansından silinərək satışa çıxarılıb, əvəzində dövlətimiz tərəfindən 4 ədəd "NAZ Lifan X-70" markalı yeni avtomobil alınaraq əməkdaşların istifadəsinə verilib. Bundan əlavə, sifariş edilmiş 3 ədəd Rusiya istehsallı olan "Niva" markalı avtomobil yaxın günlərdə nazirliyə gətiriləcəkdir.

Qeyd olunanlar onu deməyə əsas verir ki, qarşıdakı qış aylarında daxili işlər orqanlarının fəaliyyəti üçün hər hansı çətinlik gözlənilməsə də, aid strukturlar mövcud vəziyyətdən arxayın düşməməli, qışa hazırlıq işlərini vaxtında və tam həcmdə yerinə yetirməlidir.

Fazil Ələkbərov bildirib ki, payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən qarşıya qoyulan tələb və tapşırıqlar bundan sonra da vaxtında və qüsursuz yerinə yetiriləcəkdir.

Məruzə ətrafında Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının komandiri, general-mayor Səlim Niftəliyev, İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki Ələsgər İbrahimov və Dövlət Yol Polisi İdarəsinin rəisi, polis mayoru Ayaz Quliyev çıxış ediblər.

Aidiyyəti xidmət rəisləri görülən işlərlə bağlı arayış verdikdən sonra nazir daxili işlər orqanlarının və Əlahiddə Əməliyyat Briqadasının qarşısında müvafiq tapşırıqları diqqətə çatdırıb.



Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində payız-qış mövsümünə hazırlığın vəziyyətinə həsr olunmuş müşavirəni nazir, baş ədliyyə müşaviri Daşqın Rəhimov açaraq bildirib ki, payız-qış mövsümündə cəzaçəkmə müəssisələrinin fasiləsiz istiliklə təmin olunması, məhkumların isti geyim və ərzaqla təminatı diqqətdə saxlanılmalı, zəruri ehtiyat yaradılmalıdır. Cəzaçəkmə müəssisələrinin bütün tələbatları nəzərə alınaraq məhkumların geyim və ərzaqla təminatı sahəsində ehtiyac üzrə sifarişlər verilib. Həmçinin şəxsi heyət qış mövsümünə uyğun geyim dəstləri ilə təmin olunmalı, onların vaxtında xidmət yerinə gediş-gəlişi üçün avtobus saz vəziyyətdə olmalıdır.

Vurğulanıb ki, məhkumların sağlamlığı da diqqətdə saxlanılır. Saxlanma məntəqəsinin tibb-sanitariya hissəsində lazımi dərman preparatlarının alınması, məhkumların mütəmadi olaraq həkim müayinəsindən keçirilməsi, qış mövsümü xəstəliklərinin müalicəsi üçün nəzərdə tutulan dərmanların sifariş verilməsi təmin edilir. Pandemiya ilə əlaqədar olaraq cəzaçəkmə müəssisələrinin giriş və çıxışlarına nəzarət gücləndirilib, kompleks dezinfeksiya tədbirləri davam etdirilir.

Bildirilib ki, hər il payız mövsümündə nazirliyin sisteminə daxil olan inzibati binalardakı qazanxanalar və kombi sistemləri nəzarətdən keçirilir, su xətləri, nasoslar, digər texniki vasitələrin işlək vəziyyətdə olması yoxlanılır. Hazırda nazirliyin balansına daxil olan inzibati binaların qızdırılması üçün məhkəmələr üzrə 8, tabe qurum üzrə 7 qazanxana, 2 kombi sistemi quraşdırılıb istifadəyə verilmişdir.

Sonda məruzə ətrafında çıxışlar olub.

* * *

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən müşavirəni nazir Bəhruz Bayramov açıb.*

Diqqətə çatdırılıb ki, 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar nazirlik tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Belə ki, 2021-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 36 min 879 hektar sahədə şum aparılaraq taxıl əkini keçirilməsi nəzərdə tutulur. Bu işlərin mütəşəkkil və optimal müddətdə həyata keçirilməsi üçün nazirliyin texniki-nəzarət və aqroservis sektoru tərəfindən texnikalar saz vəziyyətə gətirilib. Hazırda muxtar respublikada 2411-i təzə olmaqla, ümumilikdə, 3526 kənd təsərrüfatı texnikası mövcuddur ki, ondan 78-i aqrolizinq və rayon bazalarında, qalan 3448-i isə sahibkarların xüsusi mülkiyyətindədir.



Payızlıq taxıl əkini ilə əlaqədar şum və səpin aparmaq üçün 764 təkərli, 70 tırtıllı, 116 taxılsəpən, 397 kotan, 78 çizel və şırımaçan, 38 toxumtəmizləyən, 300 lafet saz vəziyyətə gətirilib.Toxumçuluq kənd təsərrüfatının bitkiçilik sahəsində vacib sahələrdən hesab edilir. Payızlıq taxıl əkininin aparılması üçün muxtar respublikaya 6500 ton toxum tələb olunur. Tələb olunan toxum "Bərəkət Toxumçuluq" təsərrüfatında, "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təcrübə təsərrüfatında və torpaq mülkiyyətçilərinin özlərində mövcuddur. Hazırda "Bərəkət Toxumçuluq" təsərrüfatında 320, "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təcrübə təsərrüfatında 170 ton yüksəkkeyfiyyətli reproduksiyalı buğda, arpa toxumları mövcuddur və toxum tədarükü davam etdirilir. Toxumların satışı "Bərəkət Toxumçuluq" təsərrüfatının nəzdində fəaliyyət göstərən toxumların satışı mərkəzi tərəfindən həyata keçiriləcəkdir. Hazırda təmizlənmiş toxumlar dərmanlanaraq kisələrə yığılır.

Payızlıq taxıl sahələrində gəmiricilərə qarşı sink-fosfid preparatından istifadə edilir. Əvvəlki illərdə olduğu kimi, bu il də ehtiyac yarandığı təqdirdə bu preparat vasitəsilə mübarizə tədbirlərinin aparılması nəzərdə tutulur.

Qeyd olunub ki, muxtar respublikada 1 iyul 2020-ci il tarixə 126467 baş iribuynuzlu mal, 799878 baş xırdabuynuzlu heyvan, 1 yanvar 2020-ci il tarixə 1 milyon 307 min baş quş və 98 min 400 arı ailəsi mövcuddur. Nazirliyin mütəxəssisləri tərəfindən heyvanların, quşların və arı ailələrinin qışlaması ilə əlaqədar yerlərdə səyyar müşavirələr keçirilir və bu işlər mövsüm ərzində davam etdiriləcəkdir.

Sonda Kənd Təsərrüfatı naziri payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müvafiq tapşırıqlar verib, məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Test imtahanlarının keçirilməsinə başlanılıb



Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanlarına start verilib.

Test imtahanlarında iştirak etmək üçün 101 nəfər sənəd təqdim etmişdir. İmtahanda hər bir namizədə, ümumilikdə, 60 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə fənn proqramlarına aid 40, tədris metodikası və təlim strategiyalarına aid 20 test tapşırığı təqdim edilir. Sualları cavablandırmaq üçün 90 dəqiqə vaxt verilir və hər bir düzgün cavab bir balla qiymətləndirilir. Səhv cavablar düzgün cavablara təsir etmir.

Test imtahanlarında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi aparılır. İmtahan bitdikdən dərhal sonra iştirakçılara nəticələrə dair arayış təqdim edilir. Test imtahanlarının nəticələri gündəlik olaraq Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilir. İmtahanlar 22 avqust 2020-ci il tarixədək davam edəcəkdir.

Qeyd edək ki, müəllimlərin qiymətləndirilməsi onların bilik və bacarıqlarının üzə çıxarılması, uğur qazananların həftəlik dərs yükü normasının optimallaşdırılması, aylıq vəzifə maaşlarının artırılması və maddi rifahının yaxşılaşdırılması məqsədilə həyata keçirilir. Qanunvericiliyə uyğun olaraq müəssisələrin rəhbərləri tərəfindən müəllimlər arasında dərs yükünün bölüşdürülməsi və onların karyera inkişafı zamanı qiymətləndirilmənin nəticələri nəzərə alınır, qiymətləndirilməsi aparılan müəllimlərin aylıq əməkhaqqı həftəlik dərs yükünə müvafiq olaraq artırılır. İndiyədək Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün 2 test imtahanı keçirilmiş, imtahanlarda 499 müəllim iştirak etmiş və 417 müəllim uğur qazanmışdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

Yeniləşən kəndlərimiz

# Tarixi şəxsiyyətləri və müasir inkişafı ilə qürurlanan diyar: Cəlilkənd

***Hər hansı bir yaşayış yeri ilk olaraq qədim tarixi və yetişdirdiyi görkəmli şəxsiyyətləri ilə tanınır. Bu baxımdan Şərur rayonundakı Cəlilkəndin adını çəkmək kifayətdir. Böyük demokrat ədib Cəlil Məmmədquluzadə və görkəmli rəssamımız İbrahim Səfinin adı ilə qoşa çəkilən Cəlilkənd 1961-ci ildən bu adı daşıyır. Bu yurd yeri Şərur şəhərindən 4 kilometr şimal-şərqdə, Naxçıvan-Sədərək avtomobil yolunun kənarında yerləşir. Ən qədim yaşayış məskənlərindən biri olan bu kənddə II minilliyin əvvəllərinə aid edilən və xalq arasında “qalaça” adlandırılan siklop tikililər mövcuddur. Şərur rayonundakı yeganə “Buzxana” tarix-memarlıq abidəsi də bu kəndin payına düşüb. Ümumiyyətlə, Cəlilkənd qədim tarixi və dəyərli şəxsiyyətləri ilə muxtar respublikamızın sayılıb-seçilən yaşayış məntəqələrindən biridir.***

Bu yaşayış məntəqəsinin qədimliyini buradakı qəbiristanlıq sübuta yetirir. El arasında “qalaça” deyilən bu xarabalıqda xeyli siklop tikililəri var. İnşa üsulu və texnikasına görə bu “qalaçalar” eramızdan əvvəl II minilliyin əvvəllərinə aid edilir. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev yazıb ki, “Qəbiristanlıq ətraf yerlərə nisbətən hündür təpənin üzərində yerləşir. Orta əsrlərə aid olan qəbirlər başlıca olaraq qəbiristanlığın cənub və qərb tərəflərindədir. Başdaşılarının bir qismi torpağın aşınması nəticəsində yerə düşmüşdür. Başdaşıları çəhrayı və boz rəngli daşlardan dördkünc formada hazırlanmışdır. Onların mərkəzi hissəsi taxça şəklində oyulmuş və ərəb əlifbası ilə kitabələr yazılmışdır. Tarixlər hicri təqvimi ilə verilmişdir. Başdaşılarında hicri 1210, 1310, 1334 və sair tarixlərə rastlanır. Araşdırmalar göstərir ki, qəbiristanlığın ərazisindən uzun müddət istifadə edilmişdir. Arxeoloji və epiqrafik materiallara əsaslanaraq qəbiristanlığı XVIII-XX əsrlərə aid etmək olar”.





Cəlilkənd bu gün təkcə zəngin tarixi keçmişi ilə deyil, həm də müasir infrastrukturu ilə öyünür. Kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzi, müasir muzey binaları ilə Şərur istiqamətinə üz tutan hər kəsdə fərəh hissi oyadır, sakinlərin xoş güzəranından xəbər verir. İndi kəndin müasir tikililəri sırasında gözoxşayan məktəb binası Naxçıvandakı ən qocaman təhsil ocaqlarından biridir. 135 yaşı olan məktəbin əsası 1885-ci il sentyabrın 20-də qoyulub. Məktəbin ilk nəzarətçi müdiri olmuş dövrünün tanınmış ziyalısı, Qori Müəllimlər Seminariyasının məzunu Əlimməmməd Xəlilov təhsil ocağının yaradılmasında fəal rol oynayıb. Məktəb kəndin imkanlı sakinlərindən olan İsmayıl xan Səfiyevə məxsus evdə fəaliyyətə başlayıb. Cəlilkənd məktəbi yarandığı ilk gündən kitabxana işinə də diqqət göstərilib, 1901-ci ildə məktəbin kitabxanasında 825 adda 1816 kitab və dərslik olub. Müxtəlif illərdə bu məktəbdə Əbülqasım Sultanov, Məmməd bəy Qazıyev, Fərzəli bəy Fərzəlibəyov, Tağı bəy Səfiyev, Ələkbər Süleymanov, Kərim bəy Səfiyev, Abbasqulu bəy Səfiyev və başqaları kimi ömrünü yeniyetmə və gənclərin maariflənməsinə həsr etmiş müəllimlər çalışıblar.

Bütün bunlarla yanaşı, böyük demokrat-yazıçı Cəlil Məmmədquluzadənin bu məktəbdə dərs deməsi qürurlu cəhətdir. 1887-ci ildə təyinatla bu kəndə göndərilən Mirzə Cəlil burada iki il çalışıb. Böyük maarifçi kənddə 24 şagirdə dərs deyib. Onlardan 6-sı sonralar təhsilini davam etdirib. Cəlil Məmmədquluzadənin seminariya dostu Əbülqasım Sultanovun tərtib etdiyi “Məktəbə daxil olanlar və bitirənlər”in siyahısından məlum olur ki, böyük ədibin dərs dediyi şagirdlərdən Cəlil Səfiyev Moskva Universitetinin Hüquq, Hüseynqulu Səfiyev isə Tibb fakültəsini bitiriblər.

Cəlilkəndin daha bir xoş xatirəsi də var – görkəmli ədib 1889-cu ildə bu kənddə ilk yaradıcılıq nümunəsi olan “Çay dəstgahı” alleqorik dramını yazıb. Əsər elə həmin ildə məktəbin müəllim və şagirdlərinin iştirakı ilə tamaşaya qoyulub.

2015-ci ildə Cəlilkənd məktəbi müasir tələblərə uyğun şəkildə yenidən qurulub, 270 yerlik və 3 mərtəbədən ibarət olan binada 4-ü elektron lövhəli olmaqla, 15 sinif otağı, 2 kompüter otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat, müəllimlər, tibb otaqları, kitabxana, bufet və idman zalı istifadəyə verilib. Kompüter sinifləri, laboratoriyalar müasir inventarlar və təcrübə avadanlıqları ilə təchiz edilib. Məktəbin kollektivi yaradılan müasir şəraitdən istifadə edərək məktəbin zəngin təhsil ənənələrini davam etdirirlər.

Cəlilkənddə özünəməxsusluğu və tarixi ilə seçilən bir tikili də var – Azərbaycan dramaturgiyasının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin xatirə muzeyi. Muzey böyük demokratımızın zəngin irsini və xatirəsini özündə yaşadan və təbliğ edən dəyərli ekspozisiyaya malikdir. Azərbaycanda ilk məktəb muzeyi məhz onunla yaranıb. Cəlil Məmmədquluzadənin xatirə muzeyi 2013-cü ildən müstəqil muzey kimi fəaliyyət göstərir. Muzeydə nümayiş etdirilən eksponatlar, əsasən, ədibin istifadə etdiyi əşyalar, müxtəlif illərdə qələmə aldığı əsərlər, “Molla Nəsrəddin” jurnalının müxtəlif nömrələri, eləcə də Cəlil Məmmədquluzadə irsindən bəhs edən kitablardır. Bir sözlə, muzey Mirzə Cəlil həyatının bütün dövrlərinə şahidlik edən eksponatların toplanması, onun yaradıcılığının öyrənilməsi və tədqiqində əsas yer tutur.

Naxçıvanda müxtəlif tarixi dövrlərin yadigarı olan çoxsaylı abidələr sırasında buzxanalar özünəməxsus yer tutur. Buzxana abidələri xalqımızın həyat tərzinin mühüm bir göstəricisidir. Orta əsrlər dövründən başlayaraq yay aylarında yerli əhali istilərdən qorunmaq, yeyinti məhsullarını, şəxsi azuqələrini uzun müddət saxlamaq üçün buzxanalardan istifadə edib. Buz əldə etmək məqsədilə qış aylarında bu binalara çəkilmiş kəhriz suyu zirzəmiyə vurulur, burada donaraq buza çevrilir və uzun müddət istifadə olunurdu. Buzun əriməməsi üçün onların arasına saman da tökülürdü. Odur ki, buzxanalar Naxçıvanın bir çox bölgəsində tikilib istifadə edilib.

Orta əsrlərdə Naxçıvanda geniş vüsət almış türk-islam mədəniyyəti abidələrinin yaradılması ənənəsi sonrakı dövrlərdə də davam edib. Buna ən gözəl nümunə XIX əsrdə inşa olunmuş Cəlilkənd buzxanasını göstərmək olar. Kəndin girişində yerləşən buzxana bura gələn qonaqları salamlayaraq ilk başdan Cəlilkəndin tarixi haqqında zəngin təəssürat yaradır. Dördkünc formalı bu bina yuxarıda tağabənzər formada tamamlanıb. Girişi cənub tərəfdən olan binanın divarları yonulmuş boz rəngli qaya parçalarından inşa edilib. İçərisində divarlar boyunca dördkünc formalı səkilər salınıb. Çox hissəsi yerin altında yerləşən buzxanaya enmək üçün daşdan xüsusi pilləkən düzəldilib. Tarixin sərt sınaqlarından keçərək aşınmalara məruz qalan buzxana Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2015-ci ildə bərpa olunub.




Ölkə əhəmiyyətli memarlıq abidələri sırasında olan Cəlilkənd buzxanasında yenidənqurmadan sonra bir neçə sənətkarın fəaliyyət göstərməsi üçün xalq yaradıcılığı emalatxanaları istifadəyə verilib. Burada, həmçinin bölgəyə məxsus yeməklər hazırlanaraq gələn qonaqlara təqdim edilir. İnsanların qədim məişət mədəniyyətinin izlərini özündə yaşadan belə bir abidənin yenidən qurulması, gələcək nəsillər üçün qorunub saxlanılması həm tariximizə sahiblik, həm də turizmin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Kənddə yeni yaradılan müasir binalardan biri də mədəniyyət evidir. Böyük tarixi şəxsiyyətlərin yurd yeri kimi adıçəkilən Cəlilkənddə bu ənənələrin müasir dövrümüzdə də davam etdirilməsi üçün hərtərəfli şərait mövcuddur. Kənd mədəniyyət evində 100 yerlik tədbirlər zalı, kitabxana və iş otaqları yerləşir. Müasir inventarlarla təchiz olunmuş zalda müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Mədəniyyət evindəki kitabxananın fondunda 10 mindən artıq ədəbiyyat vardır. Həmin binada bərbərxana, qadın gözəllik salonu və dərzi sexi də fəaliyyət göstərir.

Cəlilkənddəki yeni həkim ambulatoriyası müasir imkanları və nümunəvi səhiyyə xidməti ilə sakinlərin sağlamlığının etibarlı təminatçısıdır. Ambulatoriya binasında stomatoloji kabinə, aptek, palata, doğuş, peyvənd, mama, manipulyasiya, müayinə otaqları vardır. Yaradılan şəraitdən ruhlanan kollektiv yorulmadan sakinlərin sağlamlığı qayğısına qalır.

***“Cəlilkənd ziyalılar kəndidir. Şərur rayonunda ilk məktəb və kitabxana burada yaradılıb. Rayon ərazisindəki yeganə buzxana abidəsi də Cəlilkənddədir. Kəndin qədim tarixi və zəhmətkeş insanları vardır. Ona görə kəndin inkişafı mərhələ-mərhələ həyata keçirilib, insanların rahat yaşayışı üçün şərait yaradılıb”***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə kəndin içməli su təminatı yaxşılaşdırılıb. “Şərur şəhərinin və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Cəlilkənddə də yeni içməli su şəbəkəsi qurulub. Nəticədə, 2222 sakin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunub, sakinlərin uzun illər çəkdiyi əziyyətə son qoyulub.

*Bəli, yuxarıda da qeyd etdiyim kimi, burada yaşayaraq kənd adamlarına maarifçilik ideyaları təlqin edən böyük dramaturq Cəlil Məmmədquluzadənin və bu yurd yerinin yetirməsi olan böyük rəssam İbrahim Səfinin kəndi kimi dillər əzbəri olan Cəlilkənd bu gün müasir yaşayış məntəqəsi kimi muxtar respublikada gedən sosial-iqtisadi inkişafı nümayiş etdirir. Tarixi tikililəri, yeni sosial obyektləri və müasir inkişafı ilə Cəlilkənd Şərurun xoş növrağının daha bir qürurverici ünvanıdır.*

**Gülcamal TAHİROVA**

---

“İxrac ili” – 2020

# Dünyanın bəzəyi – Naxçıvan mərməri

***Son illərdə yaranmış yeni iqtisadi şəraitdə ölkəmizin ixrac potensialının daha da artırılması və onun qeyri-neft məhsulları istiqamətində şaxələndirilməsi, qəbul olunmuş mühüm qərarlar “Made in Azerbaijan” brendinin formalaşdırılması və onun dünyaya tanıdılması zərurətini bir daha ortaya qoyub. Təbii sərvətlərlə çox zəngin olan Naxçıvanda özəl bölmənin inkişafına göstərilən dövlət dəstəyinin daha da artırılması bu baxımdan öz bəhrəsini verib.***

Bol parlaq günəş, bərəkətli torpaq, su, təmiz, quru hava, mineral sular, yeraltı mineral maddələr, turizm ehtiyatları, tikinti materialları və digər çox sayda təbii qaynaqlar Naxçıvanda yaşayan insanların sağlamlığı və normal həyatı üçün əvəzedilməz faktorlardandır. Təbii ehtiyatlardan səmərəli istifadə üzərində qurulmuş dayanıqlı iqtisadi model isə muxtar respublikanın hərtərəfli inkişafını tamamlayan digər bir ünsür olmaqla, özünü mühüm tələbatların ödənilməsində göstərir. Bu həm yerli əhalinin ehtiyaclarının qarşılanması, həm də Naxçıvanın ixrac potensialını ortaya qoymaqla bir çox dünya ölkələrindəki insanların da həyatını rifahlandıran təbiiliyi və keyfiyyəti ilə seçilən məhsullardır. Naxçıvanda fəaliyyət göstərən “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi mərmər və travertin məhsulları da muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərində yerli tikinti materiallarına olan tələbatın ödənilməsində mühüm rol oynamaqla bərabər, həm də ölkəmizin ixrac potensialına mühüm bir töhfə qazandırır.

2005-ci ildə yaradılmış müəssisə muxtar respublikamızın təbii sərvətlərindən daha səmərəli istifadə etməklə travertin və mərmər emalı üzrə ixtisaslaşıb. Qarabağlar, Çalxanqala, Yuxarı Buzqov və Ərəzin kəndlərinin zəngin yataqlarından çıxarılan travertin, mərmər və sianid daşlar emal üçün müəssisəyə gətirilir və burada quraşdırılmış Türkiyə, İtaliya və Çin istehsalı olan avadanlıqlarla istənilən forma və ölçüdə emal olunaraq ev və həyətlərin, bina fasadlarının, yolların, küçə və xiyabanların bəzəyinə çevrilir. Xammal kimi istifadə olunan bu daşlar təbii olaraq antibakterial keyfiyyətə malik olub, daxili məkanlarda da geniş istifadə olunur. Müəssisədə olarkən öyrəndim ki, gündəlik istehsal gücü 2,500 kvadratmetr daş olmaqla burada bej, oliv, sianid və travertin məhsulları ilə yanaşı, qara inci mərmər də istehsal edilir. Müəssisədəki dekorasiya sahəsində kompüterlə idarə olunan müasir texnoloji avadanlıqlar quraşdırılmış və verilən hər bir sifarişə uyğun travertin üzərində oyma üsulla naxışlar salınır. Hazırda müəssisədə 4 növ travertin, 3 növ mərmər və 1 növ sianid daş məhsulları istehsal olunur ki, bunlar da yerli alıcılarla yanaşı, ixrac bazarlarında da yüksək tələb görür. Belə ki, satışa göndərilən yüksəkkeyfiyyətli daş məhsulları Azərbaycan Respublikasının bütün bölgələrinə çıxarılmaqla yanaşı, Türkiyə və Gürcüstan respublikalarına da ixrac edilir.





“Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi daş məhsullarının ixracı məqsədilə ölkəmizdə və xaricdə keçirilən biznes forumlarda müəssisə nümayəndələrinin iştirakı və beynəlxalq sərgilərdə müəssisədə istehsal olunan məhsulların nümayişi təmin edilmiş, nəticədə, məhsullar xarici şirkətlərin marağına səbəb olmuşdur. Həyata keçirilən kompleks tədbirlər, xarici bazarların araşdırılması və digər mühüm marketinq fəaliyyəti öz bəhrəsini vermişdir. Belə ki, 2020-ci ilin 7 ayı ərzində “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal sahələrində hazırlanan 2 min ton, yəni 40 min kvadratmetr daş məhsulları sifarişlərə uyğun olaraq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş mənşə sertifikatları əsasında istehsal edilərək Türkiyə və Gürcüstan respublikalarına ixrac edilmişdir. Hazırda məhsulların digər xarici ölkələrə də ixrac olunması planlaşdırılır.

**Əli CABBAROV**

**Ulu öndər Heydər ƏLİYEV:** ***“Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, Azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir”.***

***Məlumdur ki, hər bir xalqın mənəviyyatı, mədəniyyəti, varlığı onun ədəbiyyatında ifadə olunur. Ədəbiyyatın böyük təsir gücü həmişə dəyərləndirilmişdir. Zamanın, cəmiyyətin hadisələrini əks etdirmək baxımından bədii ədəbiyyat həmişə qiymətli qaynaqlardan biri hesab olunmuşdur. Bu anlamda, müstəqillik dövründə Azərbaycan ədəbiyyatı əvəzsiz milli-mənəvi sərvətimiz olaraq bədiiliyin gücünü yetərincə ifadə edə bilən əsərlərlə zənginləşmişdir. Ədəbiyyatşünas alimlərimizin də qeyd etdiyi kimi Azərbaycan ədəbiyyatı milli tarixi köklərə malik olub bəşər ədəbiyyatının tərkib hissəsidir.***

# Naxçıvan ədəbi mühiti milli müstəqillik ideyalarının və vətənpərvərlik ruhunun təbliğatçısı kimi

Azərbaycan ədəbiyyatının ayrılmaz qolu olan Naxçıvan ədəbi mühiti də xalqımızın tarixi dəyərini əks etdirmək baxımından maraqlı bir inkişaf yolu keçmiş, müstəqillik dövründə mövzu-ideya istiqamətində yaddaqalan yeniliklər qazanmışdır. Həmin dövrdə analitik düşüncələrin məhsulu olan əsərlərin bolluğu, mövzulara yeni baxış prizmasından yanaşmaq, azad Vətən probleminin estetik idealın əsasında dayanması məsələləri diqqəti çəkir. Xüsusilə də yeni şərait və zamanın tələbi ilə poetik əsərlərdə canlanma, ictimai-siyasi hadisələrin rolunu düzgün müşahidə etmək bacarığı azad şair psixologiyasının formalaşdığını göstərir. Ümumiyyətlə, kommunist ideologiyası, sovet senzurası kimi keçilməz hesab edilən sədləri aşa bilən bədii ədəbiyyatımızda yaşanan sarsıntılarla yanaşı, böyük tarixi uğurların təsvir və tərənnümünə geniş yer verilmişdir. Sözügedən zamanda sovet dövründə haqqında danışılmayan, ümumiyyətlə, qələmə alınmasına ehtiyat edilən bir sıra mövzulara marağın çoxalması diqqəti cəlb edən məsələlərdəndir. Bu mənada, İslam dini dəyərlərinə, müqəddəs ziyarətgahlara münasibəti ifadə edən əsərlərin üzə çıxması müstəqillik dövrünün töhfələrindəndir. Naxçıvan ədəbi mühitinin tanınmış nümayəndəsi olan Muxtar Qasımzadənin “Əshabi-Kəhf”, “Kırnada “Allah evi”, “İmamzadə” kimi şeirləri müstəqillik dövrünün imkan verdiyi və tələb etdiyi aktual mövzularda qələmə alınmışdır:




*Əl açdı göylərə yeddi kimsənə,*
*Bir olan Allaha inam gətirdi.*
*Tanrı könül verdi öz bəndəsinə,*
*Yeddi kimsənəyə salam yetirdi.*

“Əshabi-Kəhf” şeirində tarixi hadisələrin nəzmə çəkilməsindən başqa, şairin gerçəklikləri xatırlatması məqamları da vardır:

*Ziyarət edirik “Əshabi-Kəhf”i,*
*İlk inanc yerimiz, qədərimizdi.*
*“İncil” də, “Tövrat” da, “Quran” da deyir,*
*Tanrı ocaqları haqq yerimizdi.*

Bədii ədəbiyyatın əhəmiyyətli cəhətlərindən biri budur ki, həyatda baş verən hadisələri obrazlı şəkildə təqdim etməkdən başqa, onları maraqlı bir mənzərə kimi göz önünə gətirir və bu prosesdə nəyin gərəkli olduğunu anladır. Müstəqillik dövründə Naxçıvanda yaranan bədii ədəbiyyat nümunələrinin leytmotivində xalqımızın maddi-mənəvi mədəniyyət örnəkləri olan tarixi abidələri xüsusi yer alır. Bu mənada, Muxtar Qasımzadənin yaradıcılığı səciyyəvidir. Şairin əsərlərinin əksəriyyəti torpağımızın sinəsində qədim tarixin izi olan abidələrə həsr olunub. Yəqin buna görədir ki, professor Sədaqət Həsənova araşdırmalarının birində Muxtar Qasımzadəni “Naxçıvanın abidələr şairi” adlandırmışdır: “Vətənə sevgidən, onun keçmişindən, bu günündən, gələcəyindən, insanlarından və digər mövzularda yazanlar çoxdur. Muxtar Qasımzadənin fərqli cəhətlərindən biri onun daha çox Vətənin tarixi abidələrini ədəbi-bədii mövzulara çevirməsidir. Bu xüsusiyyət onun “Naxçıvanın abidələr şairi” kimi dəyərləndirilməsinə haqq verir”. Şairin “Gəmiqaya”, “Fərhad evi”, “Oğlan qala, qız qala”, “Duz saray”, “Çalxanqala”, “Əlincə”, “Köhnə qala haqqında ballada”, “Xaraba Gilan”, “Gülüstan”, “Xanəgah”, “Zorxana”, “Bəkir oğlu Əcəmi”, “Qarabağlar türbəsi”, “Babək qalası”, “Xan evi-xalq evi” kimi şeirləri tarixi-memarlıq abidələrimizə xüsusi maraq oyadır və onlar haqqındakı həqiqətləri yaddaşlara gətirir. Tarix elmləri doktoru, akademik İsmayıl Hacıyev Muxtar Qasımzadənin həmin əsərləri haqqında deyir: “İlk baxışda hiss edirsən ki, hər şeir, sanki bir poetik bələdçidir. Şeiri oxuduqdan sonra sözügedən qala, yaxud türbə haqqında səndə böyük təsəvvür və məhəbbət yaranır. Haradan söhbət gedirsə, oranı görmək həvəsi oyanır qəlbində. Misralar boyunbağı kimi qatarlanan Naxçıvan abidələrinə körpü salır elə bil”. Akademik hər bir şeirin özünəməxsus vəzifəsinin olduğunu da qeyd edir. Doğrudan da, şairin hər bir şeirində fərqli məziyyətlər vardır:

*Nuhçıxandan gəlirəm,*
*Bura Nuhun öz eli.*
*Köhnə qala – məzarı,*
*Gəmiqaya – heykəli!*

Bir çox əsərlərin meydana çıxmasında müstəqillik dövründə yaranan ictimai-siyasi, ədəbi-mədəni mühitin özünəməxsus rolu vardır. Maraqlıdır ki, həmin dövrdə tanınmış simalardan başqa, gənc şairlər də dövrün tələbindən irəli gələn mövzulara tez-tez müraciət edirlər. Filologiya üzrə elmlər doktoru Təyyar Salamoğlunun da qeyd etdiyi kimi, “Adətən, şeirə gələn şair, ilk qələm təcrübələrində sevgi motivinə, qadın-kişi münasibətlərinin ülvi məqamlarının tərənnümünə daha çox üstünlük verir”. Lakin həmin şairlərin əsərlərində Vətən, bayraq, torpaq sevgisi daha güclüdür.

Müstəqillik illərində Naxçıvan ədəbi mühiti gənc yazarlarla zənginləşmişdir. Onların içərisində qadınların da özünəməxsus yeri vardır. Kamilə Dönməz, Sədaqət Nemət, Təranə Arifqızı, Zeynəb Qasımova, Gülnarə Yusifqızı, Zeynəb Naxçıvanlı, Səbinə Əlincəli, Səadət İsmayıllı, Şəlalə Fərzəliyeva, Məftunə Hüseynbəyli, Güllü Mehdiqızı, Əzizə Həsənova, Gülzadə İbrahimli, Tacirə Dünya, Gülşən Azəri, Aytəkin Dərya kimi qələm sahiblərinin yaradıcılığı mövzu rəngarəngliyi ilə diqqəti çəkir. Həmin mövzular içərisində torpaq, yurd sevgisi, mübarizə notları, üçrəngli bayrağımızın tərənnümü, tarixi hadisələrdən irəli gələn narahatlıq daha qabarıqdır.

20 Yanvar faciəsi, Xocalı soyqırımı ədəbiyyatımıza yeni mövzular gətirdi. 1995-ci ildə müstəqilliyimizin qanuni əsasının – yeni Konstitusiyanın qəbul edilməsi, Azərbaycanın əvvəlki dövrlərlə müqayisədə beynəlxalq aləmdə daha çox şöhrətlənməsi, milli müstəqilliyimizin dünya dövlətləri tərəfindən tanınması bədii əsərlərin əsas mövzularına çevrilmişdir. Maraqlıdır ki, Xocalı faciəsi mövzusunda yazılan əsərlərdə daha çox hadisələrin təsviri və təəssüf hisslərinin tərənnümü çoxdur. Barmaqla sayılacaq qədər az əsərlərdə mübarizə çalarları da vardır ki, onlardan biri də Naxçıvan ədəbi mühitinin nümayəndəsi Kamilə Dönməzə məxsusdur:

*Ağlamaq yaraşmır türk övladına,*
*Bu, ləkə gətirər türkün adına.*
*Yenidən çatmaqçün öz muradına*
*Xocalı səsləyir, Laçın səsləyir.*

Müstəqillik dövründə Naxçıvanda yaranan ədəbi örnəklərdə maraqlı və diqqətçəkən məqamlardan biri də torpaqlarımızın işğalından irəli gələn qəzəb, nifrət hissi ilə yanaşı, qisas və mübarizəyə çağırış notlarının güclü olmasıdır. Sədaqət Nemətin bir sıra şeirləri bu baxımdan səciyyəvidir:

*Köksünə daş atdıq unutqanlığın,*
*O gün unudulan olmayacaqdır.*
*Eşitsin yer üzü, eşitsin Tanrı,*
*Qisas qiyamətə qalmayacaqdır.*

Sözügedən tarixi dövrdə Naxçıvanda qələmə alınan bədii nümunələr içərisində bayatı formalı əsərlər də diqqəti cəlb edir. Məlumdur ki, folklor örnəkləri dünya ədəbiyyatının ən gözəl inciləri hesab olunur. Yüksək sənətkarlıq səviyyəsinə malik olan, məxsus olduğu xalqın dil və təfəkkür mədəniyyətinin göstəricisi olan ağız ədəbiyyatı zəngin məzmunu və böyük təsir gücü ilə seçilir. Təsadüfi deyildir ki, folklor yazılı ədəbiyyatın “ilk mayak”ı hesab olunur. Dünya xalqlarını heyran edən böyük əsərlər folklordan qaynaqlandığı üçün geniş şöhrət tapmışdır. Naxçıvan ədəbi nümunələri bir daha təsdiq edir ki, folklor yazılı ədəbiyyata material verən əsas mənbələrdən biridir. Bundan başqa, yazılı ədəbiyyat bir sıra əsərlərin formasını da folklordan alır. Bu baxımdan Təranə Arifqızının aşağıdakı misraları maraqlıdır:

*Öz əlifbam, öz dilim,*
*Öz bayrağım, öz gerbim,*
*Vətənimdir, Vətənim,*
*Mənim müstəqilliyim!*

Naxçıvan ədəbi örnəkləri arasında gəraylı şəklində yazılan əsərlərlə də qarşılaşmaq olar. Bu mənada, Zeynəb Qasımovanın yaradıcılığı səciyyəvidir:

*Günəş yenə doğacaqdır,*
*Qaranlığı boğacaqdır.*
*Üstünə nur yağacaqdır,*
*Ağlama, Vətən, ağlama!*

Araşdırmadan aydın olur ki, müstəqillik dövründə Naxçıvanda ictimai-siyasi mövzular üstünlük təşkil etmişdir. Dövrün şairləri tarixi-siyasi hadisələrə diqqətlə yanaşmış, əsərlərində xalqın arzu, istəyi ilə yanaşı, öz hisslərini də ifadə etmişlər. Zeynəb Naxçıvanlının poeziyasında da ictimai-siyasi mövzuların bolluğuna rast gəlirik:

*Soluma baxdım, yaralı,*
*Sağıma baxdım, yaralı,*
*Gül-çiçəkli dərələrə,*
*Sağıma baxdım, yaralı.*
*Əsir, yesir Qarabağım,*
*Kəlbəcərim, Laçınım,*
*Sarlar gəzir Şuşamda,*
*Hanı tərlan, Laçınım?!*
*Qubadlım, Cəbrayılım,*
*Ağdamım, Zəngilanım,*
*Nə vaxtadək, Xocalım,*
*Dərdə alışım, yanım?!*

*Müstəqillik dövrü Naxçıvan ədəbi mühiti bədii əsərlər bolluğu ilə fərqlənir. Burada lirik, epik və dramatik növlərin hamısına aid nümunələr yaradılsa da, lirik əsərlər mövzu aktuallığı və poetik ruhu ilə yanaşı, kəmiyyət etibarilə diqqəti cəlb edir. Araşdırma göstərir ki, müstəqillik dövründə Naxçıvanda ədəbiyyat öz axarında inkişaf etməklə kifayətlənməyib, mövzu-ideya baxımından daha da zənginləşərək davamlı inkişafı istiqamətində irəliləmişdir.*

**Nurlana ƏLİYEVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Hərbçilərə və sərhədçilərə sovqatlar aparılıb



Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri xalq-ordu birliyidir. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqətdə saxlanılır, ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublika əhalisinin, dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin əlamətdar və bayram günlərində hərbi hissələrə sovqat aparmaları, mədəniyyət kollektivlərinin əsgərlər qarşısında konsert proqramları ilə çıxış etmələri şəxsi heyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Bu ənənə bu gün də davam etdirilir. Belə ki, bu günlərdə “Naxçıvan Avto-Servis” Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi Naxçıvan şəhərindəki hərbi hissədə olub.

Əsgərlərlə keçirilən görüşdə cəmiyyətin direktoru Əsəd Zeynalov Azərbaycan Ordusunun qüdrəti, hərbi təlim və paradların davamlı xarakter alması, ordu ilə xalqın müntəzəm birliyi haqqında geniş məruzə ilə çıxış edərək əsgərlərimizə hərbi xidmətdə uğurlar arzulayıb.

Sonda “Naxçıvan Avto-Servis” Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi tərəfindən gətirilən 5 ton kartof, 1 ton soğan hərbi hissəyə təhvil verilib.

***

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 28-ci ildönümü ilə əlaqədar olaraq “Nəqşicahan” Holdinq Şirkətlər Qrupu tərəfindən də sərhədçilərə bayram sovqatı təqdim edilib. Tədbirdə “Nəqşicahan” Holdinq Şirkətlər Qrupunun nümayəndəsi Rifat Mahmudov, Diviziyanın zabiti, polkovnik-leytenant Anar Nəsirli və əsgər Vüqar Suvarov xalq-ordu birliyindən danışaraq dövlətimizə minnətdarlıq ediblər.

Tədbirdə 9 tona yaxın bostan məhsulları “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının anbarlarına təqdim edilib.

***

Babək rayonunun Nehrəm qəsəbəsindən olan sahibkarlar Çəmşid Həsənov və Əhməd Sadiqov tərəfindən isə 5 ton qarpız və 300 kiloqram badımcan hərbi hissəyə təhvil verilib. Əsgərlərlə görüşdə təsərrüfatçılar Azərbaycan əsgəri ilə xalq arasında qırılmaz əlaqənin bundan sonra da davam etdiriləcəyini, mövsümdə yetişən meyvə və bostan məhsulları toplanan zaman əsgərlər üçün sovqat ayrılacağını bildiriblər.

**✍ Türkan HÜSEYNLİ**

## Onlayn görüş keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən sahibkarlar, işəgötürənlərlə maarifləndirici görüşlər keçirilir, qanunvericiliyin müvafiq tələbləri izah olunur, bu mövzuda onları maraqlandıran suallar cavablandırılır.

Bu tədbirlərin davamı olaraq dünən onlayn formatda növbəti görüş keçirilib. İşəgötürən müəssisələrlə sosial tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədilə keçirilən tədbirdə nazirliklərin əməkdaşları və Babək rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin nümayəndələri iştirak ediblər. Onlayn görüşdə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı insan kapitalının inkişafı, o cümlədən iqtisadi fəallığın yüksəldilməsi, həyata keçirilən məşğulluq siyasətinin səmərəliliyinin artırılması, işəgötürənlərin maraqlarının, həmçinin əmək bazarının əsas sahələri və peşə hazırlığının əmək bazarının tələbinə uyğunlaşdırılması məqsədilə müvafiq kadrların hazırlanmasına köməklik göstərilməsi, işəgötürənlərlə məşğulluq orqanları arasında səmərəli əlaqələrin təşkili ilə bağlı müzakirələr aparılıb və sahibkarları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Çimərlik: sevilən mədəni istirahət və əyləncə ünvanı

*Muxtar respublikamızda insanların sağlamlığının qorunması və istirahətlərinin səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. Son illər Naxçıvan şəhərinin ətrafında yaradılan istirahət mərkəzləri isə sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkilinə geniş imkanlar açıb. Uzunoba gölü ətrafında çimərliyin fəaliyyət göstərməsi bu sahədə həyata keçirilən tədbirlərin davamı olmaqla yanaşı, həm də insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Burada yaradılan şərait və göstərilən xidmət gənclərin asudə vaxtının təşkili, eyni zamanda onlarda qarşılıqlı dostluq münasibətlərinin yaranmasına da xidmət edir. Burada yaradılanlar və bir gün ərzində insanların istirahət şəraiti ilə tanış olmaq üçün Uzunobaya yollandıq.*



Uzunoba gölü ətrafındakı gözəlliklərdən çox yazılıb, videosüjetlər, reportajlar hazırlanıb. Bu reportajımızda daha çox çimərlikdə istirahət üçün yaradılan şəraiti, təhlükəsizlik tədbirlərini, yüksək xidməti və muxtar respublikamıza təşrif buyuran qonaqların istirahəti üçün hər bir nüansın düşünüldüyünü diqqətə çatdırmaq istəyirik.

Çimərliyə yaxınlaşarkən yolun sağ və sol tərəfində vurulan lövhələr diqqətdən yayınmır. Həmin lövhələrin birində vətəndaşların nəzərinə təhlükəsizliklə bağlı təlimatlar çatdırılır. İrəliyə doğru getdikcə buradakı şərait, təmizlik ilk baxışdan insanda xoş təəssürat yaradır. Uzunoba gölünün ətraf əraziləri tamamilə abadlaşdırılıb, tələbata uyğun miqdarda kölgəliklər, soyunub-geyinmə və duş kabinələri, sanitariya qovşaqları, istirahətə gələnlərin nahar etmələri üçün guşə yaradılıb, voleybol və çimərlik futbolu üzrə futbol meydançası inşa edilib.

Gölün ətrafında insanların istirahətinin təşkili üçün kifayət qədər oturacaq və günəşdən qorunmaq üçün çətirlər qoyulub. Həmçinin burada qayıq da fəaliyyət göstərir ki, istənilən vətəndaş qaydalara uyğun olaraq ondan istifadə edə bilər. Burada sərinləşdirici içkilər, milli mətbəximizə xas olan müxtəlif yeməklər və ərzaq məhsulları təklif edən bina fəaliyyət göstərir. Təmizliyə riayət etmək məqsədilə tullantıların atılması üçün ərazi boyunca qutular quraşdırılıb.



Çimərlikdə Fövqəladə Hallar Nazirliyinin xilasetmə və gözətçi məntəqələri yaradılıb. Göl ətrafında diqqətlə müşahidə edən və çevik davranışlı insanlarla tez-tez rastlaşmaq olar. Bu şəxslər Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarıdır. Hər an baş verə biləcək təhlükənin qarşısını almaq üçün onlar isti və küləkli havada belə, çimərliyə üz tutanların xidmətindədir.

Məntəqə rəisi, kapitan Rüfət Məmmədova yaxınlaşırıq. İsti aylarda günün çox hissəsini göl ətrafında keçirən kapitanın qaralmış üzü, itibaxışlı gözləri onun qorxmaz, cəsarətli və yardımsevər olduğunu göstərir. Elə sözlərinə də insan həyatını xilas etməyin nə qədər dəyərli olması ilə başlayır: – Suda boğulan insanı xilas etmək, onu yenidən həyata qaytarmaq düşündüyünüz qədər asan deyil. Bu, çətin iş olsa da, lakin mahiyyəti xilas etmək olduğu üçün çox şərəflidir. Bu anlamda deyərdim, bizlər və həkimlərin işi daha məsuliyyətlidir.

Uzun illərdir, bu sahədə çalışan Rüfət Məmmədov deyir ki, bu peşəni seçmisənsə, özündən qorxu hissini kənarlaşdırmalısan. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Uzunoba gölü ətrafında gündəlik 6 nəfərlik heyətlə saat 8$^{00}$-dan 19$^{00}$-dək tam hazır vəziyyətdə vətəndaşların xidmətindədir. Bununla yanaşı, hər gün bir əməkdaşımız təhlükəsizliyin bərpası üçün 24 saat ərzində burada qalır. Xilasetmə texnikamız və digər nəzərdə tutulmuş avadanlıqlar işlək vəziyyətə gətirilib, mütəmadi olaraq təmizləmə işləri aparılır, eyni zamanda çimərlikdən istifadə edən vətəndaşların maarifləndirilməsi məqsədilə xüsusi lövhələr yerləşdirilib, üzmə sərhədlərini müəyyən edən nişanlar qoyulub və bir çox profilaktik tədbirlər aparılıb.

Kapitan Məmmədov bildirdi ki, gün ərzində gölə gələnlərin sayı 250-300 nəfər olur. Lakin həftə sonları bu rəqəm 700-800-ü aşır. Cari mövsümdə ölümlə nəticələnən hər hansı bir hadisə baş verməyib, 21 nəfər isə boğulma təhlükəsi ilə üzləşib və onlar əməkdaşlarımız tərəfindən xilas ediliblər.





Ötən şənbə havanın nisbətən küləkli olmasına baxmayaraq, çimərliyə gələnlərin sayı daha çox idi. Fürsətdən istifadə edib, onların fikirlərini öyrənmək istədik. Şərurdan olan Elşən Cəfərov nəvələri ilə bu yayın çox hissəsini məhz Uzunoba gölündə keçirib. O deyir: – Uzunoba gölü ətrafında çimərlik yaradılandan bura gəlirəm. Baxın, təmizlik, səliqə-sahman, istirahət üçün yaradılmış rahat şərait gənc və yaşlı nəslini özünə cəlb edir. Nəvələrim bura gələrkən çox sevinirlər. Bəzən işlərlə əlaqədar olaraq həftə ərzində bir dəfə gələ bilirəm, onda da nəvələrim məndən küsür. Yaradılan bu şəraiti qorumaq hər birimizin borcudur. Quran əllər, bu imkanı bizə verənlər var olsun.

Küləyin tumar çəkdiyi dalğaların qoynunda istirahət edən uşaqların sayının çox olması isə təhlükəsizlik tədbirlərinin maksimum gözlənilməsi ilə əlaqədardır. Belə ki, uşaqlar suya girərkən xilasedicilər qayıqlarla onların ətrafında dolanır, nəzarətçi səsucaldıcı vasitəsilə valideynləri uşaqlarını suda nəzarətsiz buraxmamağa çağırır.

İstirahət üçün Culfadan buraya gələn Nicat Əsgərovun fikrincə, insanların Uzunobaya axışmasının əsas səbəbi suyun və çimərliyin təmiz olmasıdır: – Gəlib burada istirahət etmək çox yaxşıdır. Şərait yaradılıb, biz də bundan səmərəli istifadə etmək istəyirik. Gölün suyu çox təmizdir. Səbəbi isə odur ki, daim nəzarət olunur və tullantılar atılmır. Orqanizmin D vitamini qəbul etməsinin ən yaxşı vasitələrindən biri də çimərlikdir. Qum, su, günəş, təmiz hava müəyyən xəstəliklərin dərmanıdır. Bu gün (şənbə günü ) dostlarımızla voleybol oynayacaqdıq. Ancaq çimərlik futbolu üzrə muxtar respublika çempionatının oyunu var. Futbola həvəsimiz olduğu üçün məhz oyuna baxacağıq. Çimərlik meydançası yeni inşa edilib və hər dəfə gələrkən burada gənclərin oynadığını görür, onlara azarkeşlik edirik.

Qeyd edək ki, cari ilin iyun ayında Uzunoba gölü ətrafında yeni çimərlik futbolu meydançasının inşasına başlanılmış və artıq istifadəyə verilən meydançada çimərlik futbolu üzrə muxtar respublika çempionatının oyunları gedir. Bu meydança istirahətə gələn qonaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün də əla vasitədir.

Çimərlikboyu insanlara mane olmadan Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Rüfət Məmmədovla söhbətimizi davam etdiririk. Kapitan bildirir ki, işləri təkcə göldə istirahət edənlərə nəzarətlə bitmir. Həmçinin çimərlikboyu gəzərək vətəndaşların səhhətinə diqqət edirlər: – Onlara tövsiyə edirik ki, ərazidə quraşdırılmış maarifləndirici lövhələrin tələblərinə əməl etsinlər. Çimərlik ərazisini məişət və digər tullantılarla çirkləndirmək, üzmə sərhədlərini müəyyən edən nişanları ötüb keçmək qadağan olunur. Uşaqlar çimərlikdən yalnız valideynlərinin müşayiəti ilə istifadə etməli, xilasedicilərin tələblərinə sözsüz əməl olunmalıdır.

*... Bu zaman gözətçi məntəqəsindən ucalan səs, – "xahiş olunur üzmə sərhədlərini müəyyən edən nişanları ötüb keçməyin", – vətəndaşları bir daha təhlükəsizlik tədbirlərinə riayət etməyə çağırır.*

## Çimərlik futbolu üzrə muxtar respublika çempionatında qrup mərhələsi başa çatıb

***Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Çimərlik Futbolu Federasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı, "Araz-bet"in baş sponsorluğu ilə keçirilən çempionatda mübarizə davam edir.***



Artıq çempionatda qrup mərhələsinin oyunlarına yekun vurulub. "B" qrupunun son görüşündə "Şahinlər" komandası "Batabat" komandasını 11:0 hesabı ilə məğlub edib. "A" qrupunda isə gərgin keçən görüşdə "Badamlı" komandası "Bənəniyar"dan üstün olub – 6:5.

"C" qrupunun lideri "Panter" "Əlincə" komandasını məğlub etməkdə çətinlik çəkməyib – 7:2. "Naxçıvan Dövlət Universiteti" komandasının rəqibi bu turda "Antiinhisar" komandası olub. Görüş tələbələrin 5:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qrup mərhələsinin son görüşündən sonra "Badamlı", "Prestij" ("A"qrupu), "Şahinlər", "Aralıq" ("B" qrupu), "Panter", "Hava Limanı" ("C" qrupu), NDU və "Antiinhisar" ("D" qrupu) komandaları 1/4 finala vəsiqə qazanıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində gənc yanğınsöndürənlərin andiçmə mərasimi keçirilib.*

## Gənc yanğınsöndürənlərin andiçmə mərasimi keçirilib



Gənc yanğınsöndürənlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, fövqəladə hallar orqanları əməkdaşının şərəf və ləyaqətini uca tutacaqlarına and içiblər. Andiçmə mərasimi başa çatdıqdan sonra çıxışlar olub.

Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovniki Ehtiram Məmmədov, Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət mayoru Mirtaleh Seyidov yanğınsöndürmə xidmətində fəaliyyətə başlayacaq gənc əməkdaşların qarşısına qoyulmuş vəzifələrdən danışıblar.

Gənc yanğınsöndürən Turac Hacıyev həmkarlarını bu əlamətdar gün münasibətilə təbrik edib, onlara yaradılan şəraitdən düzgün istifadə edərək üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə söz verib.

Nazirliyin Aparatının Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar nazirinin təbrik telefonoqramını şəxsi heyətə çatdırıb, onlara xidməti vəzifələrinin yerinə yetirilməsində uğurlar arzulayıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Fövqəladə Hallar Nazirliyi qısa müddət ərzində şərəfli bir yol keçib, muxtar respublika ərazisində baş verə biləcək təbii və texnogen xarakterli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında öz layiqli sözünü deyə bilən bir quruma çevrilib. Nazirliyin mühüm xidmət sahələrindən biri olan Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumları muxtar respublikada baş vermiş yanğınların söndürülməsi və bununla bağlı xilasetmə işlərinin aparılması, təbii fəlakətlərin, qəzaların və digər xoşagəlməz hadisələrin nəticələrinin aradan qaldırılması, döyüş və peşə hazırlığının artırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirib. Yanğınsöndürənlərin fəaliyyəti muxtar respublika rəhbərliyi tərəfindən daim yüksək qiymətləndirilib.

Vurğulanıb ki, şərəfli inkişaf yolu keçmiş yanğınsöndürmə xidmətinin hər bir əməkdaşı vətəndaşların həyatının fövqəladə hallardan, o cümlədən yanğın kimi dəhşətli fəlakətlərdən qorunması istiqamətində bundan sonra da bütün qüvvə və səylərini əsirgəməyəcək, muxtar respublikamızın yanğın təhlükəsizliyinin etibarlı təmin olunmasına layiqli töhfələr verəcəkdir.

Sonda gənc yanğınsöndürənlər tribuna önündən keçiblər.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi 7/2-də yaşamış Yasinova Xanımzər İsmayıl qızının adına olan MH-0004504 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Kükü kəndində Baxşəliyev Vüqar Mehdi oğlunun adına verilmiş JN-203$^{A}$, JN-203$^{B}$ və JN-203$^{C}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Güney Qışlaq kəndində Allahverdiyev Allahverdi Nəcəf oğlunun adına verilmiş JN-182$^{A}$, JN-182$^{B}$ və JN-182$^{C}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 604